T Ü R K O L O G İ Y A

№ 1 2021

# ƏDƏBİYYAT VƏ FOLKLOR
# ЛИТЕРАТУРА И ФОЛЬКЛОР
# LITERATURE AND FOLKLORE

*XALİDƏ METE (Azərbaycan)**

## ÜMUMTÜRK DASTANLARINDA "QIRX ƏRƏN", "AT" VƏ "SİLAH" MOTİVLƏRİ

### Xülasə

Dastanlar sınaqlardan, mübarizələrdən ibarətdir. Bu sınaqlardan isə qəhrəman təkbaşına çıxa bilməz. Türk dastan qəhrəmanının qələbəsinə qəhrəmanın özü qədər atı və silahı da şərikdir. At və silah motivi qədər qırxlar motivi də dastanlarda önəmli yerlərdən birini tutur. Bu motiv daha çox qəhrəmanın ətrafında birləşən qırx alp, dəli və ya ərəni ifadə edir ki, bunlar əslində bir bütün halındadırlar. Onlar qəhrəmanla birlikdə yaşayır, birlikdə savaşır, düşmənləri ilə vuruşda çətinə düşərkən gözəgörünməz qırx ərən onun yardımına gəlir. Məqalədə qırx ərən, at, silah motivi - qəhrəmanın ətrafındakı gücün semantikası araşdırılmış, qəhrəmanın sınağında bu motivlərin epik paradiqması tədqiqata cəlb olunmuşdur.

**Açar sözlər:** *dastan, qəhrəman, at, silah, qırx ərən, motiv, sınaq.*

**Giriş.** Türk dastanlarında saylar önəmli yerlərdən birini tutur. Həzrət Mövlana deyirdi: "Varlığın aynası nədir? Yoxluq. Axmaq deyilsənsə, yoxluğu seç". Dastanlarda, mifologiyada görülən yoxluq da bu qavramla bağlı olub, sufi bir anlayış kimi qəbul olunmuşdur. 1 rəqəmi dastanlarda başlanğıc və yaradılışı, iki kainatdakı dualizmi ifadə etmişdir. Dastanlarda, nağıllarda daha çox 3 sayından istifadə edilir. Göydən düşən 3 alma, padşahın 3 qızının və ya 3 oğlunun olması, qəhrəmanların çəkildiyi sınaqların sayının adətən 3 olması, vasitəçilik, bütünlük və tanrısal güc anlamlarını özündə cəmləyən ictimai ünsiyyəti, başlanğıc, orta və son şəklində mərhələləri birləşdirərək, tanrı, insan və kainatın nizamını simvollaşdırmaqdadır. Quran və ya çörəyin üç dəfə öpülüb göz üstünə qoyulması, Tanrı Ülgenin dünyanı yaradarkən 3 balıq yaratması (İnan, 1986: 13-21) və sairə bu rəqəmin dində və mifologiyadakı müqəddəsliyini ifadə edir.

Qırx sayı türk dastanlarında tez-tez rast gəldiyimiz və türklərin önəm verdiyi, müqəddəslik qazandırdığı bir rəqəmdir. Əslində qırx dörd sayı ilə bağlı bütün inanc və dəyərlərin on qat çoxalması ilə ortaya çıxan kamillik, tamlıq, güc və

* Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Folklor İnstitutu, filologiya üzrə fəlsəfə doktoru.
E-mail: xalida7577@gmail.com

qüvvəti ifadə edir. Bu say türk mədəniyyətində yer alan qırx gün qırx gecə, qırx quldur, qırx atlı, qırx qatır, qırx sətirlik gün, qırx gün sonra dirilmə və sairə kimi ifadələrlə yerini möhkəmləndirməkdədir. Eyni zamanda, Tufan məsələsində yağışın qırx gün qırx gecə yağması, yəhudilərə müqəddəs yerin qırx il haram buyurulması, Həzrət Musanın qırx gün dağda qalması, Süleyman və Davud peyğəmbərlərin qırx il hökmranlıq sürməsi və digər nümunələr göstərir ki, qırx çox istifadə olunan və xüsusi anlam qazanan rəqəmdir (Gömeç, 2011: 42). Təbii ki, saylarla bağlı bu inancları türklər dastanlarına da daxil edərək, özlərinə aid tarixi bilgilərlə yanaşı, adət ənənələrini, yaşam kültürünü, inanclarını, düşüncələrini bu şəkildə nəsildən-nəslə ötürməyə çalışmışlar (Alparslan, 2013: 91-109).

***Qırx ərən və dastan qəhrəmanı arasındakı əlaqə.*** Belə olmasaydı, ilk dastanlardan olan "Oğuz Kağan" dastanında qırx sayı bu qədər hallanmazdı. Dastanda Oğuz qırx gündə yeriyir, danışır, Qaf dağının ətrafını qırx gündə dolaşır, verdiği mərasimdə qırx qulac yüksəkliyində dirək basdırır, qırx masa hazırladır. "Dədə Qorqud", "Manas", "Battal Qazi", "Koroğlu", "Danışmənd Qazi" və digər dastanlarda isə qırx motivi qəhrəmanın ətrafında birləşən qırx alp, dəli və ya ərəni ifadə edir ki, bunlar əslində bir bütün halındadırlar. Birlikdə yaşayar, birlikdə savaşarlar. "Manas" dastanında Manasın oğlu Semetay Talası geçərkən düşmənləri ilə vuruşda çətinə düşür və o anda gözəgörünməz qırx ərən onun yardımına gəlir. Qeybdən gələn qırxlar motivi "Danışmənd Qazi", "Battal Qazi" və digər mistik dastanlarda üç müxtəlif şəkildə özünü göstərir:

1. Qırx sayı ilə bəzi əşya və davranışlar sərgilənir.
2. Dastanlarda qəhrəmanın ətrafında meydana gəlmiş qırx alp gücünü ortaya qoyur.
3. Qırxlar motivi ilə görünməz aləmdən gələn qoruyucu, güc verici, müqəddəsliyə yüksəlmiş şəxslər ifadə edilir.

Əslində bu variantlar bütün dastanlar üçün keçərli hesab oluna bilər. Onu da qeyd edək ki, ilkin çağları əks etdirən Altay-Yenisey türklərinin dastanlarında qəhrəmanın adətən təkbaşına gəzib, təkbaşına savaşdığına rast gəlinirdisə, köçəri tayfaların təşəkkül etdiyi dövrlərdən başlayaraq qəhrəmanın yanında "qırx igid", xatunların yanında "qırx qız"lar görünməyə başladı. Qəhrəmanlar savaşlarında, əyləncələrində, hətta evlənmələrində belə bu qırx igidlə bərabərdirlər. Qəhrəmanın, bahadırın, alpın yanında olan bu qırx igidin hamısı demək olar ki, bəy soyundandır. Qanturalı bu qırx igidə:

"Hey qırx eşim, yoldaşım...
Qurban olsun sizə başım" şəklində səslənir (Kitabi-Dədə Qorqud, 2004: 250).

"Manas"da da həyatları təsvir edilən bütün qəhrəmanların yanında "qırx çora" (igid), yaxud da "qırx ayaş" var. Manasın qırx çorası soylu və əsl-nəcabətli qəhrəmanlardır. O, döyüşçülərinə daim belə xitab edir:

Elim ilə yurdum içindən
Dərlədiyim, topladığım ərənlər.

Bu qırx igid, qırx ərən qəhrəmanın döyüşlərdə, mübarizələrdə dayağı, köməyidir. Onlar bütün mübarizələrdə qəhrəmanın yanındadırlar. Qəhrəman üçün

də onlar çox qiymətlidir. Yenə Dədə Qorqudda Beyrəyin qırx igidi əsarətdən qurtarmayınca gərdəyə girmədiyinin şahidi oluruq: “yoldaşlarımı çıxarmayınca, hisarı almayınca, murada erməzim” ( Kitabi-Dədə Qorqud, 2004: 76).

***Atın türk dastanlarındakı dəyəri.*** Daim yeni torpaqlar fəth etmək, mübarizə aparmaq atı türk qəhrəmanının gündəlik həyatının bir parçası etmişdir. Mahmud Kaşğari “At türkün qanadıdır”, “Quş qanadın, ər atın” sözləri ilə atın dəyərini biçmişdir (Atalay, 1986: 48-49). Həqiqətən də türk qəhrəmanını nə atsız və silahsız təsəvvür etmək mümkündür, nə də mübarizələrdən, sınaqlardan bu sadiq dostları olmadan keçmələri. Bu sınaqlarda, qazanılan zəfərlərdə misri qılınclar, qıratlar, bozatlar da eyni dərəcədə qələbəyə şərikdirlər. Başqa sözlə, dastanlarda zəfərin də, məğlubiyyətin də gerçək sahibi atdır. Dədə Qorqudda da “At kişnəyər, ər öyünər... Atsız kişinin ümidi olmaz” (Kitabi-Dədə Qorqud, 2004: 209) deyimləri ilə atın qiyməti anladılır. Bu silahlar və atlar həm də sahibinə çox sadiqdir. Bir çox dastanlarda qəhrəmanın oxunu başqası ata bilmir, qılıncını başqası istifadə edə bilmir, atı öz sahibindən başqa kimsənin ona yaxınlaşmasına izin vermir.

Türk tarixində at hər zaman xüsusi ehtiram və hörmətlə anılmışdır. Türk dastanları arasında atından bəhs edilməyən qəhrəman, demək olar ki, yoxdur. At ən az qəhrəman qədər alpdır. At tipi bütün türk dastanlarında funksiyaları baxımından qəhrəmandan sonra gələn ən mühüm tipdir. Hətta bir çox dastanda at tipinin qəhrəman tipi ilə oxşar xüsusiyyətlərə malik olub çox vaxt ən az qəhrəman qədər alplıq göstərdiyinə şahid oluruq. Orxon kitabələrində Kül tiginin atının adı Alp Salçıdır. Bu qeydiyyat atın qədim türklərdə qəhrəmanların ən yaxın silahdaşları olduğunun və bir qəhrəman kimi qiymətləndirilərək alp adı verildiyinin göstəricisidir (Ensar, 1995: 24). Bu yerdə qeyd etməyə dəyər ki, Dədə Qorqud əfsanələrinə görə bir türk oğlu öz igidliyini sübut etmədən ona alplıq verilməz. Bu adın ata verilməsi həmin dövrdə ata olan xüsusi ehtiramdan irəli gəlir

***Türk dastanlarında atların növləri***: Qəhrəmanın hər birinin atının öz şəcərəsi, öz soyu var. Bu at adi at deyil. At tipinə bağlı olaraq qarşıya çıxan ən geniş yayılmış motivlərdən biri atın ***sudan çıxması*** motividir. Qazaxıstanda Dədə Qorqudla bağlı əfsanələrdən birində “Koroğlu Dədə Qorqudun arvadı Həlimədən dünyaya gəlmişdir. Onun Qıratını Dədə Qorqud bəsləmişdir. Qırat isə dənizdən çıxan bir su atı ilə adi bir atın birləşməsindən yaranmışdır. Bu birləşmədən doğulan çirkin dayça Dədə Qorqudun sehri ilə Qırat olmuşdur” deyirlər (Alptekin, 1997: 23). Bu əfsanədə iki önəmli türk eposuna aid motivlərin xalq istəyi ilə bir əfsanədə birləşdirildiyi görülür. Ümumiyyətlə, “Koroğlu” dastanında məhurluqda Koroğludan geri qalmayan Qırat bütün variantlarda sudan çıxan iki atın birləşməsindən doğulmuşdur. “Dədə Qorqud”da da tacirlərin Rum elindən Bamsı Beyrəyə dəniz qulunu olan boz bir at gətirməsindən söhbət açılır. Sudan çıxan at motivi Z.Vəlidi Toğana görə türklərə məxsusdur. Amudərya qollarından olan Vakh hövzəsində, Rusta-Bik mövqeyində sudan çıxmış atlar haqqında hekayələr vardır (Şükrü, 1977b: 50).

Dastan qəhrəmanının atının sudan çıxma qədər geniş yayılmasa da, ***dağdan çıxma motivinə*** dair məlumatlara da rast gəlinir.

Bəzi inanclara görə isə müqəddəs atlar ***Günəş diyarından*** gəlirlər. Koroğlunun atı sudan çıxaraq Dəniz Ayğırı və Çöl Kısrağının birləşməsindən törəmişdir. Özü və ya atası sudan, ***çöldən çıxıb gələn***, atəşdən doğulan belə canlılar qeyri-adi və fövqəladə xüsusiyyətlərə malikdirlər. "Çöldən çıxma" adətən dayanıqlığın sınandığı yer hesab edilir. Övliyaların çöllərdə gəzməsi də bununla izah olunur.

İnanclara görə Məhəmməd peyğəmbər meraca çıxarkən Burak adı verilən bir heyvandan istifadə etmişdir və türklərə görə bu atdır. Burak sözü ərəbcə "berk" (şimşək) kökündən törəmiş bir sözdür, sürəti və işığı ifadə edir. Burak, Əl-Burak qazax türklərində Purak adı ilə tanınan, "ildırım" mənasını verən əfsanəvi at növüdür (Kalish, Terekbayeva, 2018: 61). Bu isə türk mifologiyasında bəzi atların ***küləkdən yaranması*** inancı ilə üst-üstə düşür. Beləcə küləyin gücü və sürəti ata keçmişdir.

Türk dastanlarında iştirak edən atların bir başqa özəlliyi də ***uça bilməsidir***. Bu motiv xüsusilə arxaik dastanlarda qarşımıza çıxır. Dastanlarımızda yer alan atlara verilən dəyərin səbəblərini dərk etmək üçün ilk növbədə atın, türk mifologiyasında yerini müəyyən etmək lazımdır. Türk mifologiyasına görə at, insanı müqəddəs qüvvələrin yanına aparan vasitələrdən biridir. Tanrı dərgahına yetirən heyvan olma xarakteri ata müqəddəs bir dəyər qazandırır. İnsanı behiştə çatdıracaq yolu da at bilir (Seyidoğlu, 1996: 55). Yuxarıda da qeyd etdiyimiz kimi Məhəmməd peyğəmbərin Burak adlı əfsanəvi heyvanın belində Məkkədən Qüdsə, oradan da Allahın göydəki məskəninə ecazkar səyahəti haqqında əhvalatı bu atların uça bilmə xüsusiyyəti ilə əlaqələndirilə bilər. (Легенды и мифы о животных, 2014: 30) Orta Asiyadakı Astana qəbiristanlığında tapılmış ipək parça üzərindəki təsvirdə həyat ağacının yanında qanadlı atların yer alması atın bəxtiyarlığını və cənnətin yolunu bildiyini ifadə edir (Çoruhlu, 1993: 24). Türk dastanlarında Tanrı tərəfindən verildiyinə inanılan bu göydən enən və ya dənizdən çıxan madyanlardan doğulan möcüzəvi atlara qanadlı at, tulpar deyilir. Tulpar türk, qırğız və altay mifologiyasında adı çəkilən qanadlı uçan at, yunan mifologiyasında qanadlı və sehrli at olaraq bilinən Peqasla (Мифологический словарь, 1989: 416) bənzərdir. Şumer, Çin, və Hindistan mifologiyasında "tək buynuzlu at"ın var olduğu da söylənilməkdədir (Kalish, Terekbayeva, 2018: 61).

Ümumiyyətlə, əcdadlarımız "qanadlı at"ın göy üzündə nəqliyyat vasitəsi kimi istifadə olunmasına inanmışdır. Qanadlı Pars qədimdən dövrlərdən gələn Uluğ Bozqurdların simvoludur və bu torpaqların gizli tarixi haqqında bəzi məqamlara aydınlıq gətirir. Dastanlarda, əfsanələrdə yer alan cəngavər, igid və qəhrəman təhlükədə, çətin vəziyyətdə qaldığı zamanlarda bu at onun köməyinə gəlir, onun etibarlı dostu olur. Bəzi vaxtlarda Pars xarakteri gücü, inancı və müstəqilliyi göstərir (Kalish, Terekbayeva, 2018: 63-64). Qırğızların "Manas" dastanında bu uçan qanadlı atlardan bəhs edilir. Arxeoloji qazıntılar nəticəsində Qazaxıstanda kəşf edilən kurqanda "qızıl geyimli adam" adlı tapıntının başlığında tulpar fiquru vardır.

"Manas" dastanında Manasın məşhur döyüşçülərinin sürdüyü, qanadları ilə küləkdən sürətli qaçdığı deyilən əfsanəvi atlardan bəhs olunur. Başqırd inanclarına görə tulparın qanadlarını heç kim görə bilməz. Tulpar qanadlarını yalnız qaran-

lıqda, böyük maneələri və məsafələri aşarkən açar. Əgər biri tərəfindən qanadları görülsə, Tulparın yox olacağına inanırlar. Ona osetinlər "Tolpar", çeçenlər "Turpal" deyirlər. Qumuq atalar sözündə belə deyilir: Tulpar yerun birevü buççağunda tapsa da, öz yılkısın tabar. (Tulpar dünyanın hansı küncündə olsa da, öz sürüsünü tapar.)

Bu cür qanadlı atların yaranması ilə bağlı "Koroğlu" dastanında maraqlı təsvir formasına rast gəlinir. Dastanda atası Koroğluya Qırat və Dürat anadan olan gündən bir tövlədə qırx gün işıq və insan üzü görmədən böyüdülməsini tapşırır. Koroğlu atasının xahişlərinə otuz doqquz gün riayət edir, bu atlar işıq və insan üzü görmürlər. Amma qırxıncı gün Koroğlu dözə bilmir və tövlənin üstündə bir deşik açaraq baş verənləri görmək istəyir. Koroğlu gördüklərinə inanmır, sağ tərəfdəki atın çiyinlərində iki qanad alov kimi yanmaqda, qızıl kimi parıldamaqdaydı. Sol tərəfə baxır, sol tərəfdəki atın qanadları yox idi. Təkrar sağdakı ata baxanda qanadların sönmüş olduğunu görür (Seyidoğlu, 1996: 55). Koroğlu marağına məğlub olur. Atlara baxmasa, qırxıncı günün sonunda Qırat uçan at olacaqdı. Dastanlarda uçan atların sirri onların ilahi mənşəli varlıqlar olmaları ilə izah edilir.

Şəcərəsi bilinən bu atlar eşidilməyən səsləri belə duyan, təhlükəni əvvəlcədən bilib xəbər verən, bacarıq və qəhrəmanlıq ənənəsinə sahibdir. Dastanlarda sahibləri ilə birlikdə silkələnib daz bir ata çevrilən atlar vardır. Beləcə bir anda gücləri artır. Nağıllarda, dastanlarda biz hətta uçmaqla yanaşı danışa bilən atlara da rast gəlirik.

Təkcə "Manas" dastanında 200-ə qədər at adı var. Lakin onların hamısı eyni dərəcədə məşhur deyil. Bamsı Beyrəyin Bozayğırı, Alpamışın Şubarı, Manasın Ağqulası, Uralxanın Ağbutu, Töştük xanın Çalquyruğu, Qazan bəyin Qonuratı, Koroğlunun Qıratı, Əlinin Düldülü, Koblandının Tayburılı bu soylu atlardandır.

Türklərdə və monqollarda insanın düşüncə gücü, insan ruhu da bir taya (Rüzgar taya) bənzədilir və adına "Buyan" deyilir. Türklər atlara adətən rənglərinə görə ad verirlər: Ağat, Bozat, Qırat, Alat, Sarat, Qarat, Dorat... Qara Atın yer altına, Ağ Atın isə səmaya gedərkən istifadə ediləcəyinə inanılır və bu səbəblə yeraltı Tanrısına qara at, səma Tanrısına ağ at qurban edilir.

Adətən dastanlarda, əfsanələrdə adı çəkilən at növləri: **Yılmaya:** Qanadlı At, **Tulpar:** Uçan At, **Kilin:** Buynuzlu At, **Cirən:** Danışan At, **Burşun:** Əkiz Atlar. Ağ Burşun və Kök Burşundur (Mikayılov, 2016: 4-6). Bu atlar Sudan çıxan, Dağdan gələn, Günəş diyarından gələn, Çöldən gələn, Küləkdən yaranan, yaxud da bu atların birləşməsindən doğulan atlardır.

***At qəhrəmanın sadiq dostu və yaxın köməkçisidir və ya dastanlarda atların funksiyası.*** Türk dastanlarında, qəhrəmanlar atları ilə birlikdə anılır. Hətta qəhrəman ilə birlikdə atları da ölürlər (Özkan, 1997: 152). Bir çox dastanlarda qəhrəmanlar anadan olduqları andan etibarən igidliklər göstərməyə başlayır. Qəhrəmanların atları da sahiblərinə paralel olaraq fövqəladə keyfiyyətlər nümayiş etdirirlər. Türk dastan qəhrəmanının ideyalarını həyata keçirərkən istifadə etdiyi ən mühüm silahı atıdır. Atsız bir qəhrəman məğlub olmuş deməkdir.

Oğuz nəslinin atları təsadüfi atlar deyil. Hər birinin ayrı özəlliyi, ayrı xüsusiyyəti var. Bu atların boynu uzun, alınları geniş, gözləri iri, qulaqları dik, sağrısı geniş, ayaqları uzundur. Qəhrəmanların atları sahiblərinin ən yaxınköməkçi, dostudur. Bamsı Beyrəyin atı üçün söylədikləri dastan qəhrəmanı ilə atı arasındakı əlaqənin mənasını ortaya qoyması baxımından əhəmiyyətlidir:

“Mən sənə at demərəm, qardaş deyərəm, qardaşımdan artıq!
Başıma iş gələndə yoldaş deyərəm, yoldaşımdan artıq!”
(Kitabi-Dədə Qorqud, 2004*:* 213)

Türk dastanları at sevgisi və tərifi ilə doludur. Qəhrəmanlar atlarını yalnız yoldaş yox, qardaş sayırlar. Dastanlarda qəhrəmanlar atlarını sevə-sevə, oxşayaraq “Aslım kara kişiydi, adımı sən çıkardın, yürügüm” deyirlər. Dədə Qorqud dastanında Qazan soruşur: “Hünər atın mı, ərin midir?”, “Xanım, ərindir” – deyir. Qazan xan, “Yox, at işləməsə, ər öyünməz. Hünər atındır” – deyir (İnan, 1992: 17).

Dastan qəhrəmanları bir çox yerdə atları ilə birlikdə tərənnüm edilir. Hətta bəzən qəhrəmanı tərif edərkən onun adından öncə atının adı söylənilir: Boz Ayğırlı Bamsı Beyrək, Qonur atlı Qazan bəy. Oğuz dastanlarında başlayan bu tablo xalq hekayələrində də bu cür davam edir. Dastan qəhrəmanlarının adları atlarının adları ilə birlikdə çəkilir: Oğuz Kağan – Alaca At, Koroğlu – Qırat, Alpamış – Bayçipar, Ər Torsuk – Çalquyruq, Edige – Timçavar, Battal Qazi – Aşkar.

At qəhrəmana yardım edir, ona kimlik və mənlik qazandırır, qardaşı, yoldaşı, hətta yanından heç ayrılmayan yarı məqamına yüksəlir. Qəhrəmanın qolu, qanadı, dostu, qardaşı, hətta sirdaşı olan at onun yanından ayrılmır. Bu atlar sahibini təhlükələrdən qoruyur, xəbərdar edir, ona yol göstərir, sahib olduğu fövqəladə güc sayəsində ölümlərdən qurtarır, onu qələbəyə aparır. Atından uzaq qalan qəhrəman gücünü, qüvvəsini, cəsarətini itirir, adi insan halına düşür. Qəhrəman özü də atını yanından ayırmır, onu unutmur, tanrıya yalvararkən belə atının adını mütləq anır. Bu atlar o qədər ağıllı, düşüncəlidir ki, çox vaxt düşməni yaxşı tanıyır, yeri gələndə hiylə işlədir. Koroğlunun Qıratı da insan kimi ağıllı və anlayışlıdır. Bağdadda Koroğlu igidləri ilə bərabər əsir götürülərkən Qırat onu kimsə bəyənib almasın deyə kor və topal təqlidi edir. Düşmən də çox vaxt qəhrəmanı ram etməyin yolunu onun atının məhv edilməsi və uzaqlaşdırılmasında görür. “Koroğlu” dastanında Koroğlunun daha da şöhrətləndiyini görən paşalar, xanlar tədbir görməyə çalışırlar ki, onu aradan götürsünlər. Keçəl Həmzəni öyrədib Çənlibelə göndərirlər ki, Qıratı qaçırtsın.

Dastanlarda qəhrəman atına o qədər bağlıdır ki, vətən, ailə, torpaq, sevdiyi qız kimi atı üçün də ölüm-dirim mübarizələrinə girir, atının əziyyət çəkməsinə heç vaxt könlü razı olmur. Koroğlu Keçəl Həmzəni Qıratın üstündə görəndə ürəyi qubar bağlayır:

Qıratdı mənim dirəyim,
Əriyər qalmaz ürəyim.
Sən olasan duz-çörəyim
Həmzə, incitmə Qıratı (Azərbaycan dastanları, c.4, 2005: 149).

Paşalara, xanlara qan udduran Koroğlu Qıratını darda görüncə:

“Allahı çağırıb düşərəm yola,
Bu dərdi sinəmdə qala, qoymaram.
Qıratım həsrətdi, yolum gözləyir,
Düşmənlər əlində qala, qoymaram” (Azərbaycan dastanları, C.4, 2005: 159) – deyən Koroğlu bir dəqiqə belə dayanmayıb təkbaşına yola düşür. Qıratı xilas etdiyi zaman isə özünü dünyanın ən cəsur, hünərli igidi hesab edir.

Qəhrəman düşmən tərəfindən qaçırılan və ya hər hansı bir təhlükədə qalan atı üçün mübarizə aparır. Yenə Koroğluda Qıratın Həmzə tərəfindən qaçırıldığı bölmədə Koroğlunun Qıratı qurtarması üçün neçə-neçə sınaqdan keçdiyinin şahidi oluruq. Bunun üçün qəhrəman həm döyüş, həm də ağıl sınaqlarından keçməlidir: “İgidin ya atını apardılar, ya arvadını, ikisi də namusdan sayılar”.

Gücün simvolu olaraq bilinən bu atlara bəzən elə məziyyətlər yüklənir ki, onlar atla sahibi arasında xüsusi bağ qurmaqla yanaşı həm də yardımçı funksiyasını yerinə yetirir. Koroğlu qocalıb əldən düşdüyündə, mübarizəni dayandırıb bütün dəliləri evlərinə buraxdığı zamanlarda belə Qırat Çənlibeli tərk etmir.

Xüsusi özəlliyə sahib atlardan biri də Manas xanın atıdır. Manas zəhərli içki içərək öləndə, ağ sunqur, ağ tazı və atı Ağ-Kulanın sayəsində yenidən həyata qaytarılır (Sakaoğlu, 1997: 168-169). Ağ-Kula həm də çox görkəmli və ağıllıdır. Sahibinə sadiqdir, döyüşlərdə onunla birlikdə düşmənə anlayaraq və istəyərək hücum edir.

Bayşubar, Kökşubar və ya Çubar olaraq da bilinən Alpamış xanın atının da qeyri-adi xüsusiyyətləri vardır. Ümumiyyətlə, üstündə kiçik ləkələr şəklində yumru nöqtələr olan heyvana “çubar” deyilir. Çubar sözü sürətli getmək mənası ehtiva edir. Çapmaq feli ilə eyni kökdən gəlir. Türkcə Çubar, monqolca Çabdar, buryatca Sabıdar sözü boz rəngi də ifadə edir.

Alpamışın Çubarı türk əfsanələrindəki fövqəladə atların xüsusiyyətlərinin hamısını daşıyır. Uça bilir, danışır, sahibini əvvəlcədən xəbərdar edir, onu tək buraxmır, bir aylıq yolu bir gündə gedir, sahibinin nə vəziyyətdə olduğunu hiss edərək ona görə davranır. Qızıl yallı, gümüş üzəngili, quyruğu doqquz hörgülü, doqquz kolanlı kimi təsvir olunur. Atası sudan çıxıb. Çoxrənglidir.

Qədim dövrlərdən bu yana türk mədəniyyətində, folklorunda atın əhəmiyyəti azalmamış, əksinə İslam mədəniyyəti daxilində də varlığını davam etdirmişdir. “Battalnamə”, “Saltuknamə”, “Danişməndnamə” kimi islam dövrü dastanlarında at mühüm rollar oynamağa davam etmişdir.

Savaş meydanında Aşkarı itirən Battal Qazinin başqa ata minincə heç bir hünər göstərə bilməyib əsir düşməsi dastanda xüsusi ustalıqla təsvir edilir. O Aşkar ki, möcüzəvi şəkildə bir mağarada ruhdan xəlq olmuşdu. İnsan kimi danışan, sahibini qoruyan, havada uçan Divzadə Aşkar adlı bu atın abi-həyatdan içib həmişəyaşar olması hələ də əfsanə olaraq yaşamaqdadır.

“Həmzənamə”dəki Aşkar, daha sonra sıra ilə digər dastanlarda “Battal Qazi” və “Sarı Saltuk”un atı olaraq ortaya çıxmışdır. Anadoluda məşhur olan “Həmzənamə”dəki atın Həzrət Həmzəyə Allah tərəfindən göndərildiyinə inanılır. Həzrət Həmzənin Aşkarı abi-həyat içmiş olub, Adəm Əleyhissəlamdan bəri yaşayır. O, eyni zamanda Həzrət İbrahimin oğlu Həzrət İshaqın mindiyi atdır. Bu at

zaman-zaman Kəbəni təvaf edib, yaşadığı mağaraya qayıdır. O, adətən müsəlmanlığın yayılması üçün göndərilmiş ilahi bir atdır (Sakaoğlu, 1997: 169).

Göründüyü kimi, islamdan sonra da at müqəddəs qəbul edilməyə davam etmişdir. Bu anlayış, şübhəsiz ki, islam öncəsi türk mifologiyasının ata göstərdiyi əhəmiyyətdən irəli gələn bir təzahürdür (Kara Düzgün, 2012:19).

Qəhrəmanın sınaqlardan zəfərlə çıxmağında qırx gün gün qırx gecə döyüşlər, qırx ər-ərən, dost-sirdaş at kimi silah da önəmli yerə sahibdir. Ümumiyyətlə, qılınc türklərdə müqəddəs bir obyektdir. Əcdadlarımız qılıncı nəsildən-nəslə əmanət edib evdə saxlayardılar. And içərkən əyilib qılıncı öpərdilər. Bu silah döyüş ruhunun simvolu sayılardı. Hətta skiflərdə qılınc Tanrının rəmzi hesab edilərdi.

Dastanlarda göydən gələn qılınclar ən güclü silahlar olaraq qəbul edilir. İldırım Tanrısı tərəfindən göndərilən qılıncların özündə ildırımın mahiyyəti vardır. “Koroğlu” dastanının elə ilk boyunda biz möcüzəvi silahın qəhrəmanın həyatındakı yerini görə bilirik. Alı kişi oğlu Rövşənə − Koroğluya deyir: “Nə qədər ki, Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özün də bu Çənlibeldəsən, sənə heç kəs dov gələ bilməyəcək!” (Azərbaycan dastanları, c.4, 2005: 13).

Misri qılınc Koroğlunun əsas silahıdır və demək olar ki, ilahi mənşəyə malikdir. Dastan boyu biz Misri qılıncın Koroğlunun həyatındakı, mübarizələrindəki, qələbələrindəki rolunun danılmaz olduğunu görürük. Əgər qılınc onun əlindədirsə, demək, sınaqlardan uğurla çıxmamaq kimi bir qorxu yoxdur. Beləliklə, bu qılınc özü kimi qəhrəmanını da güclü, qüvvətli və qeyri-adi igidliyə sahib olmasını təmin edən ünsürlərdən biridir.

Ölümsüzlük suyunu axtaran Ural xana da atası qığılcımlar saçan almaz bir qılınc verir. Bu qılıncı yerə vuranda yerdən su çıxır. Bəzi əfsanələrə görə qəhrəmanlar daşdan anadan olarkən əllərində qılıncları da varmış. Bir çox nümunələrdə isə qılıncı suya vuranda suda yol açdığı söylənilir ki, bu motiv Musa peyğəmbərin dənizi yarması hekayəsini gözümüzün qarşısına gətirir. Bəzən qılınc qəhrəmanın canıdır və onu yerə saldıqda ölür. Macarlara görə, Attila xan Hadur adlı müharibə tanrısının özü döyərək düzəltdiyi qılıncını tapıb.

Dastançı bu səhnələri yaratmaqla, möcüzəvi qəhrəmana elə özü kimi möcüzəvi at, silah verməklə, onun nəinki hünərini birə beş artırır, həmçinin türkün qüdrətini və bu vasitələrə olan xüsusi önəmini ön plana çəkməyə çalışır.

Dastanlarda qədim silah növü olan oxun, yayın da rolu danılmazdır. Türklərdə yay mübarək bir silahdır və göy üzünü əks etdirir. Oğuz Kağan Bozoklar deyilən oğullarına Qızıl Yayı üç yerə bölərək vermişdir (digər oğullarına da Üçokları bölüb). Oğuz əfsanələrində boy icmalarına ox mənasını ehtiva edən adlar verilir: Onok, Bozok, Üçok. Əfsanələrdə soylu insanların atdıqları oxlar Günəş işıqları tərəfindən tutulur. Günəşin şüaları da ox kimi qəbul edilir. Türkcə Ok/uk kökü silah, hiss, öyrənmək, ibrətamiz vəziyyət, məktəb mənaları əhatə edir.

Qədim dövrlərdə türklərin həyatının ən qüvvətli və nüfuzlu silahı olan ox və yay gedərək savaş silahı olmaq xüsusiyyətindən kənara çıxmış, önəmli simvola çevrilmişdir. Bu anlayış zaman keçdikcə daha da genişlənərək siyası bir anlama

yüksəlmişdir. Səlcuq Sultanı Toğrul bəyin tuğrası ox və yaydan ibarət olduğu kimi, tikdirdiyi məscidin də mehrabında ox və yay şəkli işlənmişdi.

Hüquqi və siyasi simvol özəlliyi daşıyan ox və yay motivi bu anlamı türk dastan gələnəyindəki dəyərindən almışdır ki, bunun ən təsirli formasına Oğuz xan dastanında rast gəlinir. Uluq Türkün yuxusu bunun nümunəsidir: Uluq Türk yuxusunu Oğuz xana danışdı: "Qızıl bir yay gündoğandan günbatana, üç gümüş ox quzeyə getdi. Göy Tanrı yuxumu gerçəyə çevirsin. Tanrım bütün yer üzünü sənin nəslinə bağışlasın". Burda siyasi anlam verilən ox-yay simvolu gücün təmsili kimi dəyərləndirilir vədünyanın hökmranlığının əldə cəmlənməsinə təkan verən motiv kimi işıqlandırılır. Eyni zamanda, türkün ox və yayı müqəddəsləşdirməsinə işarə edir.

Dədə Qorqudda Bamsı Beyrəyin oxunun başqasının əlində "sözə baxmaması", xüsusilə namərdlərin əlinə "yaraşmaması", eyni zamanda başqa ox və yayın da Beyrəyin əlində sınması bu silah növünə oğuzların xüsusi dəyər verməsinin göstəricisidir.

**Nəticə.** Dastanlarda qırx rəqəmi ilə bağlı verilənlər, at, ox və yay ünsürü daha çox dastan qəhrəmanının hünər və məharətini sərgiləmək üçün bir vasitə olaraq dəyər qazanır. Bu səbəblə adıçəkilən ünsürlər dastan qəhrəmanının kimliyini dəyərləndirən milli bir motiv kimi qiymətləndirilə bilər. Eyni zamanda, bu motivlər qəhrəmanın mübarizələrdən, sınaqlardan zəfərlə çıxmasında mühüm rol oynayan əsas motivlərdir. Çətin məqamda, təhlükəli anlarda atlar, silahlar, qırx igidlər, qırx ərənlər, qırx gün, qırx gecələr və digər motivlər türk qəhrəmanı üçün dayaq, uğur və zəfərə aparan yoldur.

## ƏDƏBİYYAT


1. Azərbaycan dastanları. 5 cilddə. cild 4. (2005). Bakı: Lider nəşriyyatı.
2. Kitabi-Dədə Qorqud (2004). Bakı: Öndər nəşriyyat.
3. Mikayılov Ş. Azərbaycan ədəbiyyatında at mənəvi dəyər kimi. (2016). Bakı: Təhsil problemləri, 8-15 iyul.
4. Alptekin A. P. "Kazakistan'da Edilir Olan Dede Korkut ile İlgili Efsaneler". (1997) // V Uluslararası Türk Halk Kültürü Kongresi. Halk Edebiyatı. Ankara.
5. Atalay B. Divan-ü Lûgat-it-Türk Tercümesi. (1986). Ankara.
6. Kara Düzgün Ü. Türk Destanlarında Merkezi Kahraman Tipinin Tipolojisi (2012)// Folklor/Edebiyat, Cilt 18, Sayı 69, 2012/1.
7. Ensar A. "Dede Qorqud Hekayələri ilə Türk Dastan və Xalq Nağıllarında Alp-Qız Motivi" (1995) // Folklor /edebiyat.
8. Gömeç S. Şamanizm ve Eski Türk Dini. (2011). Ankara: Berikan Yayınevi.
9. Çoruhlu Y. Türk Sanatında Görülen Hayvan Figürlerine Gök ve Yer Sembolizmi Açısından Bir Bakış. (1993). Türk Dünyası Araştırmaları Dergisi, Sayı: 87.
10. Kalish A., Terekbayeva J. Kazak Türklerinin Folklor Kaynaklarına göre Efsanevi ve Geleneksel Taşıtlar (2018) //Millî Folklor, Yıl 30, Sayı 117.
11. İnan A. Tarihte ve Bugün Şamanizm. Materyaller ve Araştırmalar, 3. b. (1986). Ankara: Türk Tarih Kurumu Yayınları.
12. İnan A. "Türk Destanları", Türk Dünyası El Kitabı – III. (1992), Ankara.
13. Özkan İ. "Manas ve Altın Arığ Destanındakı Motifler" (1997) // Manas 1000 Bişkek Bildirileri (Bişkek, 26-31 Ağustos, 1995), Ankara: AKM Yay.

14. Sakaoğlu S. “Manas Destanı ile Anadolu Destanlarında Kurtarıcı At Motifi” (1997) // Manas 1000 Bişkek Bildirileri (Bişkek, 26-31 Ağustos, 1995). Ankara: AKM Yay.
15. Seyidoğlu B. “Mitolojik Dönemde At”, Umay Günay Armağanı, (ed.Özkul Çobanoğlu; Metin Özaslan) (1996). Ankara: Feryal Matbaacılık.
16. Şükrü E. “Türklerde Atın Armağan Olması”. (1977b). Halk Edebiyatı Araştırmaları. Ankara.
17. Легенды и мифы о животных. (2014). Москва: Центрполиграф.
18. Мифологический словарь. (1985). Москва: Просвешение.

*Халида Мете (Азербайджан)*

## Мотивы «сорока молодцов», «коня» и «оружия» в общетюркских дастанах

### Резюме

Дастаны повествуют об испытаниях и противостояниях. Герой в одиночку из этих испытаний выйти не сможет. В победе героя тюркского дастана не менее важную роль, чем он сам, играют его конь и оружие. Наряду с мотивами коня и оружия мотив «сорок»а также занимает одно из значимых мест в дастанах. Этот мотив в большей мере связан с сорока альпами, храбрецами или молодцами, которые, объединяясь вокруг героя, фактически сливаются с ним в одно целое. Они живут вместе с героем, сражаются вместе с ним, сорок невидимых молодцов приходят к нему на помощь во время затруднений в борьбе с врагами. В статье исследовались мотивы сорока молодцов, коня, оружия в качестве окружающей героя силы и их эпическая парадигма в испытаниях героя.

**Ключевые слова**: *дастан, герой, конь, оружие, сорок молодцов, мотив, испытание.*

*Khalida Mete (Azerbaijan)*

## The motives of "forty warriors", "a horse" and "a weapon" in all-Turkic dastans

### Abstract

Dastans consist of trials and confrontations. The hero cannot pass from these confrontations alone. In the Turkic dastans, the hero’s faithful horse and his weapon play an equal important role as hero in his victory. The motif of the forties also has a main place as well as the motives of the horse and weapon in the Turkic dastans. Mainly, this motif characterizes forty alps, igids or warriors uniting around the hero that, they are as a whole really. They live together with the hero, fight together, and during the battle with enemies invisible forty igids help the hero in the difficulties and fight together with him. The motives of the horse, weapon and forty igids – the semantics of the power of around the hero have been studied, the epic paradigm of these motives in the testing of the hero has been involved to the research in the article.

**Keywords:** *dastan, hero, horse, weapon, forty igids, motive, trial.*